

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 20 (23.662)

*30 yanvar 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində yanvar ayının son 15 günü ərzində bir sıra qərarlar qəbul edilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 may tarixli 60 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları”nda dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 21 yanvar tarixli 17 nömrəli Qərarı ilə bir sıra qərarlarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən “Naxçıvan Muxtar Respublikasında dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması”nda,”Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumtəhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi və müəllimlərin müsabiqə yolu ilə işə qəbulunun aparılması haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli Qərarında dəyişikliklər edilmişdir. Həmçinin “Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Qərarda da dəyişiklik edilmişdir.

Bundan başqa, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”nda dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 27 yanvar tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında əlilliyi olan şəxslərin abilitasiyası Qaydası”nın təsdiq edilməsi haqqında Qərar qəbul olunmuşdur. Qaydaya əsasən abilitasiya sağlamlıq imkanları məhdud olan şəxsin mövcud potensialını maksimum inkişaf etdirməklə sərbəst yaşamaq imkanlarının artırılmasını nəzərdə tutur.

Eləcə də “Naxçıvan Muxtar Respublikasında xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası”nın təsdiq edilməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 iyul tarixli 71 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə”də dəyişiklik edilməsi haqqında Qərar qəbul olunmuşdur. Bu qayda cinayət və cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında xüsusi müsadirə olunmuş əmlakın dövlət nəfinə verilməsi qaydasını müəyyən edir. Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş yekun qərarı əmlak üzərində dövlətin mülkiyyət hüququnun əmələ gəlməsi üçün əsasdır.

Həmçinin “Naxçıvan Muxtar Respublikasında Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Qərar qəbul olunmuşdur. Adıçəkilən qərara uyğun olaraq Naxçıvan Muxtar Respublikasında Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası” Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud olan şəxslərin Fərdi Reabilitasiyası Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi ilə əlaqədar məsələlər tənzimlənir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar. nakhchivan.az*) tanış olmaq mümkündür.

## İlin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin 2020-ci il 30 dekabr tarixdə keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasından irəli gələn vəzifələr və nazirlik, onun yerli orqanları tərəfindən 2020-ci ildə görülmüş işlərə, 2021-ci ildə qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.

Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək bildirib ki, 2020-ci ildə əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində işlər davam etdirilib. Muxtar respublika sakinlərinin sosial rifahının yüksəlməsinə əsaslanan, səhiyyə xidmətlərinin səmərəliliyini, keyfiyyətini artırmaq məqsədi daşıyan icbari tibbi sığortanın əhatə dairəsinin daha da genişlənməsi üçün quruculuq tədbirləri davam etdirilib, həyata vəsiqə alan yeni səhiyyə müəssisələrinin maddi-texniki bazaları gücləndirilib.

2020-ci ildə dünyada pandemiya halını alan virusun muxtar respublikada yayılmasının qarşısının alınması sahəsində genişmiqyaslı tədbirlər görülüb, bu məqsədlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb, müasir laboratoriya qurulub və lazımi tibbi ehtiyatlar alınıb. Virusla mübarizə məqsədilə səhiyyə müəssisələri ümumi dəyəri 4 milyon 700 min manatdan artıq olan tibbi avadanlıqlar, dərman və ləvazimatlar, həmçinin dezinfeksiyaedicilərlə təmin olunub.

Naxçıvan Muxtar Respublikasında uşaqların sağlamlığının qorunması sahəsində işlərin həcminin və keyfiyyətinin artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın icrasının davam etdirilməsi nəticəsində uşaqlara göstərilən tibbi xidmətin səviyyəsi xeyli yüksəlib, onların sağlamlıq vəziyyətinin yaxşılaşdırılması, uşaq ölümünün azaldılması istiqamətində müsbət nəticələr əldə olunub.

Nazir bildirib ki, son illər qan xidmətinin inkişafına da xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait Mərkəzi Qan Bankının fəaliyyətinə geniş imkanlar açıb. Mərkəzi Qan Bankında qan komponentlərinin alınması və uzun müddət saxlanılması üçün lazımi imkanlar vardır. Görülən işlərin nəticəsi olaraq muxtar respublikada talassemiya və hemofiliyalı xəstələrin ömür müddəti xeyli uzadılıb. Hazırda muxtar respublikada 39 talassemiyalı, 75 hemofiliyalı xəstə qeydiyyatda durur. Onların qan komponentləri ilə bərabər, dərman təminatı da daim yüksək səviyyədə aparılır.

Diqqətə çatdırılıb ki, hesabat dövründə tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə çoxsaylı seminar və konfranslar keçirilib, Bakı şəhəri və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşdirmə kurslarına göndərilmiş həkim və orta tibb işçilərinin sertifikasiya işi davam etdirilib.

Məruzə ətrafında müzakirələr olub.

* * *



*Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində ötən ilin yekunları və qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı keçirilən iclasda idarənin rəisi Mehman Məmmədov çıxış edib.*

Qeyd olunub ki, “Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı”na və idarənin iş planına uyğun olaraq dövlət arxivlərində fəaliyyətin müasir prinsiplər əsasında qurulması, arxiv fondlarının elektron kataloqlarının, elektron qeydiyyat sisteminin yaradılması məqsədilə tədbirlər davam etdirilib. Görülən işlər nəticəsində dövlət arxivində 757 fond üzrə 448,123 saxlama vahidinin daxil olduğu 2,252 siyahının elektron qeydiyyatı və təkrar yoxlama işləri aparılıb, həmçinin dövlət arxivinə yeni qəbul olunmuş fond sənədlərinin elektron kataloqunun yaradılması davam etdirilib. Rayon dövlət arxivlərində fond siyahılarının elektronlaşdırılması işinin aparılması məqsədilə əvvəllər kiril əlifbası ilə yazılan və istifadəyə yararsız halda olan fond siyahılarının yenidən işlənməsi, elektron kataloqun hazırlanması istiqamətində həyata keçirilən tədbirlərə ciddi önəm verilib, rayon dövlət arxivləri tərəfindən bu günədək 331 fond üzrə 41,329 saxlama vahidinin daxil olduğu 545 siyahının elektron kataloqu yaradılıb.

Hesabat ilində arxiv işi, arxivşünaslıq, sənədşünaslıq sahələri üzrə ixtisaslı kadrların hazırlanması üçün elm və təhsil müəssisələri ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində fəaliyyət qurulub. Naxçıvan Dövlət Universitetinin idarənin hamiliyinə verilmiş Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisasının tələbələri, ixtisas müəllimləri və AMEA Naxçıvan Bölməsinin bu sahə üzrə tədqiqatçı alimlərinin iştirakı ilə dövlət arxivində təcrübi məşğələlər, seminarlar keçirilib.

Arxiv sənədlərindən istifadə etməklə elmi-tədqiqat işləri aparmaq üçün Dövlət Arxiv İdarəsinə müraciət edən 20 tədqiqatçıya işləmələri üçün mövcud qaydalara uyğun şərait yaradılıb.

Məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilib.*

## Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilib



Əvvəlcə komissiyanın sədri Ramilə Seyidova gündəlikdə duran məsələlərlə bağlı məlumat vermişdir. Bildirmişdir ki, hesabat dövrü ərzində 1 uşaq övladlığa, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində yaşamasının təmin olunması məqsədilə 12 uşaq isə qəyyumluq və ya himayəyə verilmişdir. Bundan əlavə, muxtar respublikada yaşayan hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 2 uşaq ali məktəbə qəbul olmuşdur.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası nəzarətdə saxlanılmışdır.

2020-2021-ci tədris ilində ümumtəhsil müəssisələrinin birinci siniflərinə 58, distant tədrisin birinci sinfinə 12, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbin birinci sinfinə 3, məktəbdənkənar müəssisələrin dərnəklərinə 119, şahmat məktəblərinə 60, idman məktəblərinə 162, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə 7 və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölmələrinə 102 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmişdir. Defektoloji bölmənin və psixoloji dəstək xidmətinin mütəxəssisləri tərəfindən Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində uşaqlarla fərdi qaydada reabilitasiyayönümlü məşğələlər aparılmış, mərkəzin təlim-tərbiyə üzrə mütəxəssislərinə maarifləndirici təlimlər keçilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na əsasən 12 uşaq müəssisəsində dövri monitorinq keçirilmişdir. Monitorinqlərin nəticələri aktlaşdırılmış, nöqsanların aradan qaldırılması ilə bağlı müvafiq tədbirlər görülmüşdür. 2020-ci il ərzində Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 8403 uşaq haqqında fərdi məlumatlar daxil edilmiş, bankdakı uşaqların sayı 32766 nəfərə çatmışdır.

Ötən il ərzində 4624 uşaq doğulmuş və muxtar respublikada uşaqların sayı 165228 olmuşdur. Tibb müəssisələrində uşaqlar arasında peyvəndləmə işləri diqqətdə saxlanılmışdır. Ötən dövr ərzində 617 elektron sağlamlıq kartı alınmışdır.

Vurğulanmışdır ki, 2020-ci ildə yetkinlik yaşına çatmayanlara muxtar respublikanın bütün tibb müəssisələrində səhiyyə xidməti və icbari tibbi sığorta çərçivəsində ödənişsiz tibbi xidmət göstərilmişdir. 2020-2021-ci tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərində 52286 şagird təhsil alır ki, bunlardan da 25489-u qızdır. Ötən il ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1698-i ali, 683-ü isə orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. Ali məktəblərə qəbul olunan 275 nəfər 500-700 arası bal toplamış, 4 məzun isə Prezident təqaüdünə layiq görülmüşdür. Ötən il ərzində keçirilən Azərbaycan Respublika fənn olimpiadalarında 24, muxtar respublika fənn olimpiadalarında isə 42 şagird qalib olmuşdur.

Komitə sədri bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 9 iyul tarixli Sərəncamı ilə 2020-ci ildə muxtar respublikada xüsusi istedadı olan 2 məktəblinin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılmış və onlar xüsusi aylıq təqaüdə layiq görülmüşlər. Bəhs olunan dövrdə Şərur və Culfa rayonlarının məktəbdənkənar müəssisələrində, eləcə də Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə innovativ dərnəklərin fəaliyyətə başlaması, uşaq və yeniyetmələrin istedad və bacarıqlarının üzə çıxarılması, onların asudə vaxtlarının səmərəli təşkili baxımından əhəmiyyətlidir.

Sonda məruzə ətrafında çıxışlar olmuş, təşkilati məsələlərə baxılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Sədri cənab Vasif Talıbovun təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin anadan olmasının 70 illik yubileyi muxtar respublikada geniş şəkildə qeyd edildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 23 yanvar tarixli Sərəncamı ilə İsmayıl Hacıyevin "Şöhrət" ordeni, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il 21 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif edilməsi isə milli elmimizin inkişafında xüsusi əməyi olanların fəaliyyətinə verilən yüksək dəyər, gənc elm adamları üçün isə böyük stimul oldu.***

***Əslində, akademik İsmayıl Hacıyevi böyükdən-kiçiyə hər birimiz yaxşı tanıyırıq. Hər şeydən öncə, hər zaman fəal ictimai mövqeyi ilə seçilən vətənpərvər ziyalı, sadə, səmimi bir insan kimi. Bununla yanaşı, düşündük ki, Azərbaycan elminə mühüm töhfələr vermiş dəyərli akademikimizlə belə bir xüsusi gündə söhbətimiz oxucularımız üçün də maraqlı olar.***

## Akademik İsmayıl Hacıyev: "Həyata keçirilən siyasət böyük elmi uğurlara yol açır. Xoşbəxtəm ki, bu uğurlu yolun yolçularından biri də mənəm".



*– İsmayıl müəllim, əvvəla, icazə verin, sizi 70 illik yubileyiniz və yüksək dövlət təltiflərinə layiq görülməniz münasibətilə kollektivimiz və çoxsaylı oxucularımız adından təbrik edim.*

– Çox sağ olun, təşəkkür edirəm.

*– Əslində, sizi geniş auditoriyaya tanıtmağa ehtiyac yoxdur. Ancaq istərdik ki, İsmayıl Hacıyevi böyük elmə aparan yola birlikdə nəzər salaq.*

– 1970-1974-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Tarix fakültəsində oxuduğum zaman tələbələr Tələbə Elmi Cəmiyyətinin xəttilə elmi-tədqiqat işlərinə cəlb edilirdilər. Oxuduğum 126-cı qrupun tələbələrinin də bir qismi bu işə xüsusi maraq və səy göstərirdilər. Bu işdə mənə professor Süleyman Məmmədov və dosent Əsgər Süleymani rəhbərlik edirdilər. Süleyman Məmmədovun rəhbərliyi ilə hazırladığım elmi məruzəyə görə Ümumittifaq nişanına layiq görüldüm. Və beləliklə, Tələbə Elmi Cəmiyyəti tələbəlik illərimdən başlayaraq məni elmə aparan yol oldu. Həmin illərdə bütün tələbələr yox, ancaq fərqlənmə diplomuna namizəd ola biləcək tələbələr diplom işi mövzusu götürə bilərdilər. Bu sahədə mənə Əsgər Süleymani rəhbərlik edirdi. Yaxşı yadımdadır ki, yazacağım diplom işi üçün çox əhəmiyyətli olan Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" monoqrafiyası və Voroşil Qukasyanın (o bizə Toponimika fənnini tədris etmişdi və milliyyətcə udi (udin) idi) AMEA-nın "Xəbərlər"ində nəşr olunmuş məqaləsini akademiyanın əsaslı kitabxanasından öz adına götürüb istifadə üçün mənə vermişdi.

Orta məktəbdə işlədiyim illərdə də elmə marağım azalmamışdı. İlk elmi məqaləni yazıb əlyazma formasında "Tarix, ictimaiyyət və coğrafiya" jurnalına göndərmişdim. Nəşr olunacağına o qədər də inamım yox idi. 1977-ci il idi. Məqaləni jurnalın 3-cü nömrəsində dərc etmişdilər və bir nüsxəni poçt vasitəsilə mənə göndərmişdilər. Bu məndə özünəinamı artırdı. Ali məktəbdə işlədiyim illərdə elmə marağım bir qədər də artdı, bu həm də ali məktəbdə elmi-tədqiqatla məşğul olmaq tələbindən irəli gəlirdi.

*– İsmayıl Hacıyev təkcə akademik kimi yox, həm də əsl pedaqoq kimi tanınır. İstərdik, pedaqoji fəaliyyətiniz haqqında da danışasınız.*

– Atam Muxtar Hacıyev uzun illər müəllim işlədiyindən, belə bir ailədə tərbiyə aldığımdan pedaqoji fəaliyyətin bəzi cəhətləri ilə azçox tanış idim. Orta məktəbdə də çox savadlı, tədris etdiyi fənni şagirdlərə sevdirməyi bacaran İsrafil Hacıyev, Dövlət Məmmədov, Ramiz Səfərov, Səyyad Məmmədov, Maral Əbdüləzimova kimi müəllimlərdən öyrənməyə çalışmışam. Xoşbəxtlikdən ali məktəbdə oxuyarkən ən nüfuzlu və savadlı müəllimlər bizə müxtəlif fənlərdən dərs deyirdilər.

Heç vaxt yadımdan çıxmayan belə bir faktı xatırladım. Elmi işimlə əlaqədar tələbi aldığım Pedaqoji İnstituta getmişdim. O vaxt tələbə yoldaşım Tarix fakültəsinin dekanı idi. İkinci mərtəbədə foye ilə gedərkən professor Süleyman Məmmədovun dərs dediyini gördük. Auditoriyanın qapısı açıq idi. Mane olmamaq üçün sakitcə salam verib ötdük. Bir qədər uzaqlaşmışdıq ki, Süleyman müəllimin səsini eşidib geri döndük. O bizi auditoriyaya dəvət etdi. Təvazökarlıqdan uzaq olsa da, onda hər ikimiz elmlər doktoru, professor idik. O, qürurla keçmiş tələbələri kimi bizi Tarix ixtisasında ali təhsil alanlara nümunə göstərdi.

Ümumiyyətlə, müəllim-pedaqoq bütün fəaliyyəti ilə bu ada layiq olmalıdır. İlk növbədə, tədris etdiyi fənni yaxşı bilməli, daim öz üzərində çalışmalı, yenilikləri tətbiq etməyi bacarmalıdır. İndiki informasiya bolluğu şəraitində müəllimin məsuliyyəti birə-beş artır. Tələbələr, yetirmələri isə müəllimlərin barometri, göstəriciləridir. Müəllimi, onun savadını və pedaqoji keyfiyyətlərini şagird və tələbədən yaxşı bilən olmaz. Əsl pedaqoq olmaq hər müəllimə nəsib olmayan xoşbəxtlikdir. Müəllimlik dövründə buna nail olmağa çalışmışam.

*– Tarixi bilmək hər bir ziyalının mənəvi borcudur. Maraqlıdır, tarixi bir elm sahəsi kimi özünə fəaliyyət istiqaməti olaraq seçməniz nədən qaynaqlanır?*

– İlk növbədə, yaşadığım coğrafi ərazidən. Anadan olduğum Culfa rayonunun Xanəgah kəndi öz tarixi abidələri ilə məşhurdur. Əyilməzlik simvoluna çevrilmiş Əlincə qalası, Xanəgah Türbə Kompleksi, Əmirxan türbəsi... bu kənddədir. Həmin abidələr illərdir ki, bizə "tarix dərsi deyir". Lakin bu, vacib amil olsa da, heç də tam əsas deyil. İnsanın marağı, dünyagörüşü, qabiliyyəti, ona təsir imkanları da vacib amillərdəndir. Hər halda mənim tarixçi olmağımda bu, əsas qaynaqdır, mühüm amildir.

Burada tarix müəllimlərimin də böyük təsiri olub. Şirin müəllimin, Dövlət müəllimin bu sahədəki əməyi və təsirini minnətdarlıqla qeyd etməyi özümə borc bilirəm. Ali məktəbi bitirib tarix müəllimi oldum. Lakin sonradan işlədiyim sahə məni tarixi bir elm sahəsi kimi seçməyə sövq etdi. Təbii ki, burada üstün rol oynayan amillərdən biri də özümün marağım idi. Maraq və məqsəd insanı həmişə istiqamətləndirir.

*– Naxçıvanın tarixi və AMEA Naxçıvan Bölməsi... Bu tarixi nə qədər öyrənə bilmişik?*

– Sovetlər Birliyi dövründə "SSRİ tarixi" adı ilə, əsasən, Rusiya tarixi tədris olunurdu. Buna qarşı çıxanlar olsa da, bir çox halda bunu açıq şəkildə, cəsarətlə deyə bilmirdilər. Azərbaycan tarixi müstəqil fənn kimi keçilmirdi. Naxçıvanın tarixindən isə heç söhbət açmaq olmazdı. Azərbaycan dövlət müstəqilliyini bərpa edənə qədər Naxçıvan tarixinə neçə əsər – kitab, yaxud monoqrafiya həsr olunmuşdu? Bu, barmaqla sayılacaq qədər idi. 70-90-cı illərdə Naxçıvandakı Elmi Mərkəzin elmi potensialı da buna imkan vermirdi.

Dövlət müstəqilliyinin qazanılması bütün sahələrdə olduğu kimi, bu sahədə də yeni imkanlar yaratdı. Bunu nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təklifi ilə Azərbaycan Prezidenti, qüdrətli dövlət xadimi Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi yaradıldı. Bölmənin yaradılmasına həsr olunmuş müşavirədə ulu öndər Heydər Əliyev Naxçıvan tarixindən bəhs edərkən demişdir: ***"Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür".***

Göründüyü kimi, AMEA Naxçıvan Bölməsi bu diyarı hərtərəfli öyrənmək üçün, xüsusilə tarixini tədqiq etmək üçün yaradılmışdır. Bu istiqamət AMEA Naxçıvan Bölməsinin qarşısında duran prioritet sahədir. Bu illərdə Naxçıvan tarixi əhatəli araşdırılmışdır: həm qədim dövrü, həm də orta əsrlər, yeni və ən yeni dövrü.

Bu istiqamətdə ilk addım "Uluslararası qaynaqlarda Naxçıvan" adlı beynəlxalq simpoziumun keçirilməsi oldu. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə keçirilən bu simpozium Naxçıvan tarixinin öyrənilməsinə ciddi stimul verdi. Beynəlxalq simpoziumdakı giriş sözündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Azərbaycanımızın tarixi, ilk növbədə, vahid, bütöv Azərbaycan xalqının tarixi deməkdir. Bununla belə, tariximiz xalqımızın yaşadığı, dövlətimizin tarix boyunca fəaliyyət göstərdiyi ərazilərin də tarixi deməkdir... Bu mənada, biz Naxçıvana dair simpozium keçirməyi də, bütövlükdə, Azərbaycan tarixinin, milli mədəniyyətimizin araşdırılmasına müəyyən kömək göstərmək, bir növ təkan vermək kimi başa düşürük və bunu özümüzün anamız Azərbaycan qarşısındakı əsas vətəndaşlıq borclarımızdan hesab edirik".***

Ali Məclis Sədrinin müxtəlif məsələlərlə bağlı tarixi sərəncamları Naxçıvan tarixinin öyrənilməsinə səbəb olmuş, onlarla kitab və monoqrafiyalar, ümumiləşdirici əsərlər, xəritə və atlaslar hazırlanmış, konfranslar keçirilmiş, onların materialları nəşr olunmuşdur. Naxçıvanın tarixinin müxtəlif problemlərinə aid dissertasiyalar müdafiə edilmişdir. Hazırda Naxçıvan Muxtar Respublikasının elmi müəssisələrində, ali və orta məktəblərində çalışan 35-ə yaxın tarix üzrə fəlsəfə və elmlər doktoru AMEA Naxçıvan Bölməsinin nəzdində olan Dissertasiya Şurasında müdafiə etmişlər.

Naxçıvan tarixinə aid bütün dövrləri əhatə edən üçcildlik "Naxçıvan tarixi" və yüzlərlə elmi məqalələr yazılıb nəşr edilsə də, bunu bitmiş hesab etmək olmaz. Bu sahədə xeyli elmi-tədqiqat problemləri mövcuddur ki, müxtəlif mərhələlərdə onlar da tədqiq ediləcəkdir.

*– Gənc tarixçilərin hazırlanmasında AMEA Naxçıvan Bölməsinin rolunu necə qiymətləndirmək olar?*

– AMEA Naxçıvan Bölməsinin qarşısında duran vəzifələri əhəmiyyətlilik dərəcəsinə görə ümumiləşdirsək, ikisini xüsusi olaraq qeyd etməliyik: biri, Naxçıvan diyarının hərtərəfli öyrənilməsi, digəri isə yüksəkixtisaslı elmi kadrların hazırlanması.

Gənc tarixçilərin hazırlanması yüksəkixtisaslı elmi kadrlar arasında mühüm yer tutur. AMEA Naxçıvan Bölməsi yaranarkən elmi kadrların ümumi potensialı buna imkan vermirdi. Bir sıra kadrlar Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat müəssisələrində, yaxud institut və universitetlər bazasında məqsədli olaraq hazırlanırdı. Elmi potensialımız artdığından Azərbaycan Respublikası Nazirlər Kabineti bizə belə bir səlahiyyət verdi və 2006-cı ildən AMEA Naxçıvan Bölməsində üç ixtisas üzrə fəlsəfə doktoru, 2013-cü ildən isə elmlər doktoru müdafiəsini həyata keçirən Dissertasiya Şurası yaradıldı. Bundan sonra gənc kadrların hazırlanması işi ilə bilavasitə burada məşğul olmağa başladıq. 15 il ərzində Müdafiə Şurasında 126 fəlsəfə doktoru və elmlər doktoru hazırlandı. Bunların arasında gənc tarixçilər üstünlük təşkil edir.

*– Dövlət siyasətinin bəhrəsi olaraq yaradılan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu, Elmin İnkişafı Fondu və Naxçıvanşünaslıq Mərkəzi kimi qurumlarla AMEA Naxçıvan Bölməsinin birgə əməkdaşlığı nəticəsində geniş elmi tədqiqatlar aparılır. Bu əlaqələrin əhəmiyyəti barədə də fikirlərinizi öyrənmək istərdik.*

– Çox böyük əhəmiyyətlilik səviyyəsi nəzərə alınaraq bu qurumlar birbaşa muxtar respublika rəhbərinin təşəbbüs və göstərişi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında yaradılmışdır. Təbii ki, AMEA Naxçıvan Bölməsi bu qurumlarla qarşılıqlı əməkdaşlıq edir, onların fəaliyyətində yaxından iştirak edir. Bölmə əməkdaşlarının bir sıra fundamental əsərləri Elmin İnkişafı Fondunun vəsaiti hesabına nəşr olunur. Naxçıvanşünaslıq Mərkəzi isə öz tədbirlərini daha çox bizim bölməmizin elmi potensialına istinad edərək həyata keçirir. Bir sözlə, istər Bilik Fondu, istərsə də Elmin İnkişafı Fondu ilə Naxçıvan Bölməsinin əlaqələri məhsuldar elmi fəaliyyətə müsbət təsir göstərir.

*– Bir ziyalı kimi Naxçıvanda elmin inkişafı ilə bağlı hansı arzularınız var?*

– Ən böyük arzum bu potensialdan səmərəli istifadə etməkdir. Bildiyimiz kimi, muxtar respublikanın elm və təhsil müəssisələrində və digər qurumlarda çoxsaylı fəlsəfə və elmlər doktoru çalışır. Bunlar arasında 7 nəfər AMEA-nın üzvü, 30 nəfərə yaxın elmlər doktoru, 250 nəfərdən çox fəlsəfə doktoru vardır. Elm adamları başqa sahələrin nümayəndələri kimi, hər cür diqqət və qayğı ilə əhatə olunmuşlar. Ancaq bu da etiraf olunmalıdır ki, heç də bütün elm adamları öz potensiallarından lazımi səviyyədə istifadə etmirlər. Göstərilən dövlət qayğısı müqabilində üzərimizə düşən vəzifə aktiv elmi fəaliyyət göstərərək muxtar respublikamızın əldə etdiyi nailiyyətləri müxtəlif əsərlər vasitəsilə beynəlxalq aləmə təqdim etmək, beynəlxalq qrant layihələrində iştirak etmək, yiqincə təmsil olunmaqdır.

Ən böyük arzulardan biri isə Naxçıvanda "Alimlər Evi"nin yaradılmasıdır. Bütün beynəlxalq dini tədbirlərin, konfrans və simpoziumların keçiriləcəyi bina mərkəz funksiyasını yerinə yetirə bilər.

*– İsmayıl müəllim, sonda 70 yaşın müdrikliyinin qazandırdığı zəngin həyat təcrübəsindən, elmin zirvəsindən boylanaraq oxucularımıza nə demək istərdiniz?*

– Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında həyata keçirilən siyasət böyük uğurlara, elmi nailiyyətlərə yol açır. Xoşbəxtəm ki, bu uğurlu yolun yolçularından biri də mənəm. Ötən illər ərzində əldə etdiyimiz bütün uğurlarımızın əsasında biz elm adamlarına göstərilən yüksək dövlət qayğısı dayanır. Fəaliyyətim boyunca bir neçə dəfə fəxri adlara və mükafatlara layiq görülmüşəm. Yubileyimin yüksək səviyyədə qeyd olunması, təltiflərə layiq görülməyim 70 illik ömür yolumun unutmayacağım səhifələri oldu. Fəaliyyətimə verilən yüksək qiymətə görə ölkə başçısına və Ali Məclisin Sədrinə minnətdarlığımı bildirir, bundan sonra da bilik və bacarığımı muxtar respublikamızda elmi kadr potensialının hazırlanması, yeni elmi tədqiqatların, elmi nəşrlərin həyata keçirilməsi işinə sərf edəcəyəm.

*– Maraqlı müsahibəyə görə minnətdarıq.*

**✍ Gülcamal TAHİROVA**

## Payız semestrinin imtahan sessiyası uğurla başa çatıb



***2020-2021-ci il payız semestrində Naxçıvan Dövlət Universitetində imtahanlar gün ərzində 100 qrup olmaqla, 1600 tələbənin iştirakı ilə keçirilib.***

Tələbələr elektron qaydada təşkil edilən imtahanlarla yanaşı, ənənəvi-yazılı və şifahi qaydada da imtahan veriblər. Semestr ərzində cəmi 24000 tələbənin iştirakı ilə 1489 sayda nəzərdə tutulan imtahanların 604-ü yazılı, 630-u elektron, 255-i isə şifahi qaydada keçirilib. Elektron imtahanlar bu semestr 13 elektron və 25 yazılı olmaqla, kamera ilə təchiz edilmiş otaqlarda aparılıb.

İmtahanlara ümumi nəzarət etmək üçün isə 9 nəfərdən ibarət imtahan qərargahı, həmçinin tələbənin şikayətinə baxılması və obyektiv həlli məqsədilə apellyasiya komissiyası da yaradılıb.

Qeyd edək ki, bu gündək elektron test üsulu ilə keçirilən imtahanlar obyektivlik və şəffaflığın gözlənilməsi baxımından böyük üstünlükləri ilə özünü doğruldub. İmtahan zallarında quraşdırılan veb-kameralar şəffaflığın ən bariz nümunəsi hesab oluna bilər. Tələbələr müəyyən olunmuş vaxt ərzində kompüterin köməyi ilə 50 suala cavablandırır, nəzarətçilər tələbənin imtahanı başlamasını və bitirdiyini təsdiqlədikdən sonra tələbə imtahan nəticələri ilə bağlı dərhal məlumatı əldə edə bilir. Hər test sualı üçün 1 bal, yazılı imtahan üçün 10 ballıq qiymətləndirilmə tətbiq edilir.

Məlumat üçün onu da bildirək ki, tələbələr imtahan nəticələrini universitetin elektron səhifəsində yerləşdirilən linkdən itifadə etməklə öyrənməklə yanaşı, universitetin saytında e-cədvəl bölməsinə daxil olmaqla da məlumat toplaya bilirlər.

İmtahanlarda bir yenilik də ondan ibarətdir ki, Memarlıq və mühəndislik fakültəsində elektron jurnalın tətbiqi sayəsində tələbənin müvəffəqiyyət və keyfiyyət faizləri avtomatik olaraq sistemə inteqrasiya olunur və bu da imtahan nəticələrinin hesablanmasını sürətləndirir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## “Yaratmaq amalı”nın müəllifi gənc oxucularla görüşüb

***“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən nəşr olunmuş “Yaratmaq amalı” kitabının müəllifi, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli ilə gənc oxucuların görüşü təşkil olunub.***

Naxçıvan şəhər “Saat Meydanı” turistik istirahət mərkəzində təşkil olunan görüşdə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış edərək muxtar respublikada aparılan uğurlu gənclər siyasətindən və bu istiqamətdə görülən işlərdən danışıb. Qeyd olunub ki, bu gün muxtar respublikada keçirilən kitab müzakirələri, təqdimatlar, gənclərlə görüşlərin təşkil olunması onların hərtərəfli inkişafında ən vacib faktordur. “Yaratmaq amalı” kitabını da gənclərin düzgün istiqamətləndirilməsi, muxtar respublikanın inkişaf tendensiyalarının müxtəlif janrlar vasitəsilə təqdim edilməsi baxımından dəyərli nümunələrdən hesab etmək olar. Məhz bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə jurnalistlər üçün dərs vəsaiti kimi təqdim olunan kitablar sırasına “Yaratmaq amalı” kitabı da daxil olunub, Ali Məclisin Sədri ötən il noyabrın 21-də keçirilən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının iclasında gənclərin siyasi cəhətdən düzgün formalaşdırılması, partiya sıralarındakı nümunəvi gənclərin fəaliyyətinin təbliğ olunması və görüşlərin keçirilməsi barədə tapşırıqlar verib. Muxtar respublikada nəşr olunmuş kitablar sırasında






Azərbaycan Milli Mətbuatının 145 illiyi münasibətilə nəşr olunan “Yaratmaq amalı”ndan da gənclərin vətənpərvərlik tərbiyəsində mənbə kimi istifadə olunması tövsiyə edilib. Kitabın gənclər arasında müzakirəsi də həmin tapşırıqların icrasına uyğun olaraq keçirilir.

“Yaratmaq amalı” kitabının müəllifi Sahil Tahirli çıxış edərək muxtar respublikanın sosial-iqtisadi, mədəni tarixi keçmişini bu günün mənzərələri ilə müqayisəli təhlil edərək yazdığı kitabdan vacib məqamları gənc oxucuların nəzərinə çatdırıb. Vurğulanıb ki, əsas motivi müqayisəli təhlil olan kitabda 40-dan artıq məqalə yer alıb. Məqalələrdə müasir dövrün çağırışları, çiçəklənən muxtar respublikanın bugünkü reallığı arqumentlərlə ortaya qoyulub.

Fəal gənc oxuculardan Hüseyn Kazımov kitabın gənclərə bir töhfə olmasından danışıb, kitabda yer alan publisistik nümunələrdən söz açıb.

Qeyd olunub ki, hərbi, quruculuq, gənclərlə iş, Naxçıvanın tarixi mədəni abidələri, turizm potensialı, təsərrüfat həyatı, icra olunan Dövlət proqramlarını əhatə edən siyasi, ictimai, rəsmi, publisist və satirik janrlarda yazılan məqalələr oxuculara baş verən hadisələrdən məlumatlar əldə etməklə yanaşı, bir yol xəritəsi rolunu da oynayır. Biz gəncləri oxuyub yaratmağa, öz vəzifəsini dərk etməyə səsləyir.

Görüşdə “Yaratmaq amalı” kitabındakı “Bizə çayxana lazımdır, yoxsa kitabxana?!” başlıqlı məqalə səsləndirilib, gəncləri maraqlandıran suallar cavablandırılıb.

Naxçıvan Televiziyasının hazırladığı “Azərbaycanın ürəyidir Naxçıvan” filmi nümayiş olunduqdan sonra tədbir çay süfrəsi ətrafında davam etdirilib.

Müəllif, jurnalist Sahil Tahirli fəal gənclərə kitab hədiyyə edib.

**Türkan HÜSEYNLİ**

## Məşğulluq həyatın ritmidir – çalışmaq, məskunlaşmaq, var olmaqdır

### *Bu, 1990-cı illərin tənəzzülə uğrayan Naxçıvanı ilə tərəqqi edən Naxçıvanı arasındakı uzun yolda həmişə əsas amil kimi diqqətdə saxlanılıb*

***Məşğulluq həm cəmiyyətin, həm də insan həyatının ən vacib amilidir desək, yanılmarıq. Dünyaya göz açdığı məmləkətində böyüyən, təhsil alan insan daha sonra seçdiyi sahə üzrə məşğulluğunu təmin etməklə ömür yolunu müəyyənləşdirir: ailə qurur, ev sahibi olmağa çalışır, övladlarının sağlam böyüməsinin, təhsil almasının qayğısını çəkir və eyni zamanda bütün bunların fonunda cəmiyyət üçün gərəkli vətəndaşa çevrilir, Vətəninə, dövlətinə xeyir verə bilir. Məşğulluq həyatın ritmidir. Bu ritm bir an pozularsa, özünü insan həyatı ilə bərabər, cəmiyyətdə də təzahür etdirər. Məşğul insanla heç bir məşğuliyyəti olmayan insanları hər birimiz cəmiyyətimizdə gördüyümüz üçün onlar arasında müqayisə aparmaq o qədər də çətin olmaz. Bu halda...***

### *1990-cı illərə qısa bir nəzər...*

Bədnam qonşularımız tərəfindən muxtar respublikanı ölkəmizlə əlaqələndirən quru yolun bağlanması dəmir yolunun fəaliyyətinin dayandırılması ilə nəticələndi. Həmçinin bu qonşuluqdan kənar dövlətin ərazisindən keçərək Naxçıvana gələn elektrik və təbii qaz xətləri dağıdıldı. Naxçıvan blokada vəziyyətinə salındı. Elektrik enerjisinin, təbii qazın, dəmir yolu vasitəsilə daşınan yanacağın, müxtəlif materialların olmaması Naxçıvanda istehsal müəssisələrinin, fabrik və zavodların fəaliyyətinin dayandırılması, insanların iş yerlərini itirmələri ilə nəticələndi. Muxtar respublikanın iqtisadi həyatı tamamilə tənəzzülə uğradı. Burada həyat dayandı. İnsanlar əlləri qoyunlarında nə edəcəklərini bilmədən, sadəcə, ölməmək üçün yaşamağa çalışırdılar. Necə yaşayırdılar, necə dolanırdılar, bütün bunları fikirləşdikcə, sanki bir ilahi qüvvənin o zaman naxçıvanlıları xilasından başqa heç nə düşünmək olmur. Belə bir zamanda tək çıxış yolu Bakıya və qonşu ölkələrə üz tutub işləmək, heç olmazsa, hər ay evə çörəkpulu göndərməkdən ibarət idi. Buna görə də Naxçıvanda elə bir ailə yox idi ki, həmin ailənin başçısı, ya da övladı harasa işləmək dalınca yollanmamış olsun. Beləliklə, Naxçıvanda əhalinin sayı da azalırdı. Məşğulluğun olmaması məskunlaşmaya öz mənfi təsirini göstərirdi. Bu barədə faktlar istənilən qədərdir...

### *“Toy hədiyyəsi” (“Naxçıvan blokadası” kitabı, I cild)*

“...Elçin tək oğlunu yox, Türkiyədə olduğundan böyük bacısının da toyuna görə bilmədi. İşlədiyi yerdə müdir: “getsən, biryolluq getməlisən, işi qoyub getmək olmaz”, – deyibmiş. Bacısına toy hədiyyəsi olaraq evinə baş çəkməyə gələn qonşularının biri ilə bir xalça alıb göndərmişdi. Hələ üstəlik atasına toy xərci üçün cüzi köməklik də eləmişdi. Amma özü gələ bilməmişdi. Nə qədər cəhd etmişdirsə də, gələ bilməmişdi. Qalınlığına görə Naxçıvan xalçalarının dörddəbiri qədər olan bir xalçanı alıb bacısına toy hədiyyəsi göndərmişdi. Bu xalça bir bacının ən əziz günündə qardaşının yanında olmamasını əvəz edə bilmirdi. Qardaş hədiyyəsi idi, Gülnarın hələ illər sonra da göz nuru kimi qoruyacağı qardaş hədiyyəsi. Amma həm də hər dəfə baxdığında, sanki toyunda iştirak edə bilməyən qardaşı idi bu xalça. Gəlinlikdə ata evindən çıxan son dəqiqəyədək gözü qapıda qalan, “bəlkə, indicə qapı açılar, Elçin içəriyə girər”, – gözləntiləri idi. Bu xalça qardaşı ilə dolu xatirələri olan bu evdə – ata ocağında onu yola salmağa, qardaş xeyir-duası verməyə dili-ağzı, cürəti, haqqı olmayan cansız bir varlıq idi. Naxçıvandan düz Türkiyəyədək uzanan yollar, qardaşının ailəsindən, övladlarından çox uzaqlarda qabarlı əlləri idi. Bacı toyunun sevincini içinə gömmüş qardaş idi. Bir bacının qardaş təşnəsi idi...

Gülnar yaman kövrəlmişdi. Ata ocağından ayrılması ilə qardaşının gəlib çıxa bilməməsi gözlərindən giləlinən yaşa çevrilmişdi. Anası Süsən xala:

– Qızım, bilirəm, çox ağırdır, amma neynəmək olar? Allah kəssin belə dövrü. Bu eli bu günə salanın evi yıxılsın, tufağı sönsün. Elçinin ürəyi də əsir ki, bu gün burada ola. İndi gör necə vəziyyətdirsə, heç cür gələ bilmədi.

Süsən xala Gülnara təsəlli verirdi, amma səhərdən bəri neçə dəfə o küncdə, bu küncdə ağlayıb-sızlamış, gözünü silib ortalığa çıxmışdı. Qonşu Güllü, Nəcibə xala onun dərdinə dərd ortağı olmuşdular. Güllü xala:

– Ay Süsən, hansımızın başıpapaqlısı yanımızdadır ki? Az ağla, sızla, suyumunu sal, kiri, bəsdir.

Fatma xala demişdi:

– Ay qurban olum sənə, keçən il də mənim qızımın toyu oldu da, oğlum Nəbi gəlib çıxa bildi? O da Türkiyədədir, Allah bilir, harada yatır, harada yaşayır, nə yeyir, nə içir, harada işləyir. Budur, şükür Allaha yenə səninki bacısına hədiyyə göndərib, atasına kömək edib. Mənimki üç nəfər külfətini də atıb üstümə gedib, balamdan bir xəbər yoxdur. Biz dörd nəfər mənim pensiyamın ümidinə qalmışıq. Pensiya da ki nə pensiya: bir tay un aldın, yerdə qaldı heç nə.

Xuraman xala:

– Ay Fatma bacı, sizinkilər hələ cavandırlar ey, mənim yoldaşım 2-3 ildir, qalıb yollarda bir tikə çörəkdən yana. Yazıq Türkiyənin bu yaxın kəndlərində bağban işləyir. Yer belləyir, ağac suvarır. Allahın kəráminə qurban olum, burada torpaq yoxdur? Bu kişi buralarda bir iş tapa bilmədi, çıxıb getdi. Nədir qazancı, bir qarın çörək. Göndərdiyi ancaq una çatır.

Mənzər müəllimə:

– Qəm yeməyin bu şad gündə. İnşallah, hər şey yaxşı olar. Ölkədə vəziyyət pisdir. Müharibə gedir. Naxçıvan mühasirədədir. Sovet İmperiyası 70 illik zülmündən doymadı. Torpaqlarımızın işğalı da, Naxçıvanın blokadası da onların əlindən çıxan Azərbaycan yanğısıdır. Narahat olmayın, 10 ildən sonra bu ölkənin vəziyyətini görəcəksiniz. Allah ömür versin Heydər Əliyevə. Köməyimizə gəlməsəydi, buradaca son nəfərimizədək ölüb məhv olacaqdıq. Naxçıvan da işğal olunan rayonlardan biri olacaqdı. İndi də, şükür, ölkənin prezidentidir. Naxçıvanın da vəziyyətini çox yaxşı bilir. Yaranacaq, Naxçıvanda iş yerləri yaranacaq, gedənlər hamısı geri qayıdıb, ailəsinin yanında olacaqlar. Dünənə baxıb, bu günümüzə şükür edin. Yığışdırın ağlamağı, sızlamağı. Həyata nikbin nəzərlərlə baxın. Gəlməyib yox, gələ bilməyib Elçin. Mən ona dərs demişəm, sinfin gözü idi: nizamı-intizamı, tərbiyəsi, çanıyanarlığı ilə. Mən bilirəm ki, mümkün olmayıb gəlməyi, yoxsa onu orada kəndirlə də bağlasaydın, dayanan deyildi”.

Məncə, Naxçıvanda blokadanın ilk illərinin sosial vəziyyətini gözlər önünə gətirmək üçün bu fikirlər yetərlidir. Bəli, Mənzər müəllimə çox uzaqgörənliklə söyləyirdi o sözləri. Hələ dediyi vaxtdan da xeyli əvvəl Naxçıvanda yeni iş yerlərinin açılması sahəsində canlanma yaranmağa başlanmışdı. Çünki...









### *Naxçıvanda məşğulluq insan amilinə verilən dəyərdir*

Ümummilli liderimiz Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən əhalinin məşğulluğunun ilkin təməli kimi böyük uzaqgörənliklə ilk dəfə olaraq muxtar respublikada aqrar islahatların həyata keçirilməsinə başlamışdır. 1992-ci il aprelin 6-da Ali Məclis tərəfindən qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında”, eləcə də “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarların sonrakı illərdə uğurlu icrası muxtar respublikada torpaq islahatının uğurla başa çatdırılması, torpaqların səl sahibinə verilməsi, yeni emal müəssisələrinin yaradılması, ərzaq məhsullarının istehsalının əhəmiyyətli dərəcədə artması, eyni zamanda yeni iş yerlərinin açılması, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsi ilə nəticələnmişdir. Məşğulluq sahəsində ötən illər ərzində muxtar respublikada kompleks tədbirlər həyata keçirilmiş, yeni müəssisələr yaradılmış, səmərəli məşğulluq üçün mühüm layihələr reallaşdırılmış, özünüməşğulluğun intensivləşməsi dəstəklənmiş, yüksək əməkhaqqı tutumlu yeni iş yerlərinin açılması təşviq olunmuşdur ki, bu da, son nəticədə, əmək bazarında aktivliyi artırmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiq olunmuş Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə, 2014-2015-ci və 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət proqramlarının uğurlu icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmışdır.

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində 1 yanvar 1996-cı ildən 1 yanvar 2021-ci il tarixədək muxtar respublika üzrə, ümumilikdə, 98340 yeni iş yeri açılmışdır ki, bunun da 67945-i və ya 69,1 faizi daimi iş yeridir. 2020-ci ildə isə muxtar respublikada 955 yeni iş yeri yaradılmışdır. Aparılan məqsədyönlü iqtisadi siyasət muxtar respublikada əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmışdır. Əldə olunmuş uğurlu nəticələr, ilk növbədə, əhali gəlirlərinə öz müsbət təsirini göstərmiş, muxtar respublikada 1995-ci ildə əhali gəlirləri 31 milyon 538 min 900 manat və hər bir nəfərə düşən gəlirlər isə 94,2 manat təşkil etmişdir. Müvafiq göstəricilər dəfələrlə artaraq 2020-ci ildə isə əhali gəlirləri 1 milyard 913 milyon 243 min 400 manat və hər nəfərə düşən gəlirlər isə 4152 manat təşkil etmişdir. Bu isə 1995-ci illə müqayisədə əhali gəlirlərinin 60,7, hər nəfərə düşən gəlirlərin isə 44 dəfə artması deməkdir.

*Ardı 4-cü səhifədə*

### *Məşğulluq həm də məskunlaşmanı şərtləndirir*

Bəli, yuxarıda da qeyd etdiyimiz kimi, 1990-cı illərin əvvəllərində işsizlik ucbatından Naxçıvanı tərk edənlər sonrakı illərdə – torpaq sahibinə çevrildə doğma yurdlarına qayıtdılar. Torpaq insanların ilk məşğulluğuna çevrildi. Muxtar respublikanın sosial-iqtisadi vəziyyəti dirçəldildikcə, burada yeni müəssisələr, fabrik, zavodlar yaradıldıqca gedənlərin hamısı qayıtdı və hər kəs özünəuyğun iş yeri tapa bildi. Məşğulluğun təmin olunması ilə bağlı Dövlət proqramlarının bir-birinin ardınca uğurlu icrası isə daha yeni iş yerlərinin açılması, sahibkarlıq subyektlərinin, fermer və ailə təsərrüfatlarının yaranması, hətta özünüməşğulluq proqramının səmərəli şəkildə həyata keçirilməsi ilə nəticələndi. Bütün bunlar isə təbii ki, əhali məskunlaşmasına təsirsiz qala bilməzdi. Əhalinin rifah halının yaxşılaşması, nəticə etibarilə, öz növbəsində, dayanıqlı məskunluğu təmin etmiş, təkcə 2019-cu ildə muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına 379 min 157 kvadratmetr yaşayış sahəsi tikilmişdir ki, bu da 1995-ci ildə tikilmiş 16 min 800 kvadratmetr yaşayış sahəsindən 22,6 dəfə çoxdur. 2020-ci ildə isə muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 376 min 426 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir. Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə də müsbət təsir göstərmişdir. Belə ki, 1 yanvar 2020-ci il tarixə muxtar respublika əhalinin sayı 1995-ci ilin sonu ilə müqayisədə 36,1 faiz artaraq 459,6 min nəfərə çatmışdır. 1 yanvar 2021-ci ilə isə əhali artımı 461 min 530 nəfər olmuşdur. Bütün bunlar isə məşğulluğun məskunlaşmaya müsbət təsirinin nəticələridir.

### *Məşğulluq həyatın ritmidir*
### *Yeni Dövlət proqramı bu ritmi daha ahəngdar edəcəkdir*

Sosial-iqtisadi sahə həyatımızın əsas amili, aparıcı qüvvəsi olduğundan məşğulluğu bu sahənin ahəngi adlandırmaq daha doğru olar. Bu ahəng yalnız irəliyə doğru – inkişaf tempi ilə irəlilədikcə həm insanın şəxsi həyatı, həm də cəmiyyət var ola bilər. Naxçıvanın 1990-cı illərin əvvəllərində tənəzzülə uğramış həyatından bugünkü inkişaf, tərəqqi dövrünədək ötən uzun bir yolda məşğulluğun muxtar respublikada əsas prioritet kimi dəyərləndirilməsi insan amilinə verilən qiymət, həm də diyarımızın gələcək inkişafına hesablanmış strategiya olmuşdur. Ötən illər ərzində əhalinin məşğulluğu sahəsində Dövlət proqramlarının uğurlu icrası buna bariz nümunədir. "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı bu sahədə həyat ritminin ahəngini daha da artıracaqdır. Çünki Naxçıvanda insan amili hər zaman dövlət siyasətinin başlıca amili olub. Çalışmaq, qazanmaq, gəlir əldə etmək isə yaxşı yaşayışı, rifahı, cəmiyyət üçün xeyirli vətəndaş olmağı, məskunlaşmanı, əhali artımını, ən əsası isə yurd sevgisini xarakterizə etdiyi üçün yeni Dövlət proqramından gözləntilər yaxın 5 ildə bütün yuxarıda sadalananların fonunda muxtar respublikamıza daha böyük inkişaf, insanlara daha yaxşı yaşayış vəd edir.

**Mətanət MƏMMƏDOVA**

## İdman federasiyaları ötən ilin yekunlarını müzakirə ediblər



***Dünən Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının 2020-ci ilin yekunları və qarşıda duran məsələlərlə bağlı iclası keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin idman və idmançılara göstərdiyi diqqət və qayğı sayəsində muxtar respublikada idmana olan maraq gündən-günə artmaqdadır. "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar bir sıra işlər həyata keçirilməkdədir.

Nazir diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyası 2020-ci ildə öz işini verilmiş tapşırıqlara əsasən qurub. Muxtar respublikamızda 4469 idmançı 315 qrupda bu idman növü ilə məşğuldur. Gənclər və İdman Nazirliyi muxtar respublikamızda 2002-ci ildə yaradılan Voleybol Federasiyası ilə birgə idmanın bu növünü inkişaf etdirmək və kütləviliyinin təmin edilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirib.

Voleybol Federasiyasının sədri Mənşur Gülməmmədli çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı sahəsində mühüm işlər görülür. Gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Bu gün muxtar respublikada müasir idman infrastrukturu yaradılıb, idmanın maddi-texniki və təşkilati-hüquqi bazası xeyli möhkəmləndirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə yaradılan idman federasiyaları, eləcə də yeni tikilən və ya əsaslı təmir olunan idman obyektləri idmanın inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir. Federasiya ötən il işini günün tələbləri səviyyəsində quraraq bu idman növünün inkişafı və kütləviliyinə nail olunması istiqamətində bir sıra işlər görüb.

Mənşur Gülməmmədli qeyd edib ki, Voleybol Federasiyası 2020-ci ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və yerlərdə fəaliyyət göstərən Voleybol Federasiyasının bölmələri, idman idarələri və təhsil şöbələri ilə birlikdə il ərzində 5 rayon birinciliyi, 12 yoldaşlıq görüşü keçirib. Ümumilikdə, 2020-ci ildə 17 idman tədbiri təşkil olunub.

Sonra Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyevin 2020-ci ildə görülən işlər və keçirilən yarışlar barədə hesabat çıxışı dinlənilib.

Yığıncağa yekun vuran Voleybol Federasiyasının sədri yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

* * *



Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasında keçirilən hesabat yığıncağını giriş sözü ilə federasiyanın sədri Mayis Əliyev açıb. Bildirib ki, federasiya tərəfindən 2020-ci il ərzində müxtəlif idman növləri üzrə yarışlar təşkil edilmişdir ki, bu yarışlarda, ümumilikdə, 161 nəfər idmançı, 12 məşqçi və 10 hakim iştirak etmişdir.

Qeyd edilib ki, hazırda federasiyanın rayonlarda bölmələri fəaliyyət göstərir. Hesabat ilində Sədərək rayonunda və Naxçıvan şəhərində velosiped yarışları keçirilib. İdmançı gənclərimizin intellektual səviyyəsinin artırılması məqsədilə idmançılar muxtar respublika ərazisində fəaliyyət göstərən muzeylərdə olub, sərgilərdə iştirak ediblər. Federasiyanın internet saytında keçirilən tədbirlər haqqında məlumatlar və fotomateriallar yerləşdirilib. Eyni zamanda federasiyanın infrastrukturuna daxil olan dırmanma divarında əsaslı təmir işləri aparılıb, bəzi yeniliklərin də qurulması davam etdiriləcək.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Məcid Seyidov çıxışında bildirib ki, idman və idmançılara göstərilən dövlət qayğısı sayəsində muxtar respublikada idmana olan maraq gündən-günə artmaqdadır. Bu gün diyarımızda gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması işləri diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman mühiti gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların həyəti ilbəil genişlənir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyası muxtar respublikamızda 76 idmançı 19 qrupda bu idman növü ilə məşğuldur. Gənclər və İdman Nazirliyi muxtar respublikamızda 2013-cü ildə yaradılan federasiya ilə birgə idmanın bu növlərini inkişaf etdirmək və kütləviliyinin təmin olunması məqsədilə bir sıra tədbirlər həyata keçirib.

Sonra federasiyanın sədr müavini Azər Məmmədovun 2020-ci ildə görülən işlər və keçirilən yarışlar barədə hesabatı dinlənilib. Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının il ərzində fərqlənən idmançıları mükafatlandırılıb.

Sonda federasiya sədri yaradılan şəraitə görə məşqçi və idmançılar adından muxtar respublika rəhbərinə minnətdarlığını bildirib. Vurğulanıb ki, federasiya bundan sonra da qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində əzmlə çalışacaq, istedadlı idmançıların yetişdirilməsində səy və bacarığını əsirgəməyəcəkdir.

**Ceyhun MƏMMƏDOV**

## Baramaçılığın əvvəlki şöhrətini geri qaytarmaq üçün hər cür şərait var

Baramaçılıq olduqca qədim tarixə malik gəlirli təsərrüfat sahələrindən biridir. Azərbaycanda isə baramaçılıq VII əsrdən etibarən inkişaf etdirilməyə başlayıb. Elə bunun da sayəsində yaxın-uzaq ölkələrin ipək istehsalı müəssisələri Azərbaycanın xammalı hesabına fəaliyyət göstərib. Xeyir-bərəkəti yetərincə olan baramaçılıq get-gedə əhalinin əsas dolanışıq mənbələrindən biri olub. Buna görə də istər baramaqurdundan toxum alınması, istərsə də barama istehsalı və ipəkçilik daim yüksələn xətlə inkişaf edib. Ordubad isə sözügedən sahə üzrə ən qabaqcıl yaşayış məskənlərindən biri olub. XVI əsrdən etibarən Azərbaycan Yaxın Şərqin böyük ipəkçilik zonası, Ordubad isə Azərbaycanın əsas ipəkçilik bölgələrindən biri idi. Ordubad ipəyi hələ XVI əsrin ikinci yarısında Avropaya ixrac olunurdu. Ordubad Şərq ölkələrini Avropa ilə birləşdirən Böyük İpək Yolunun üstündə yerləşdiyindən burada ticarətin və sənətkarlığın, xüsusən də ipəkçiliyin inkişafı üçün əlverişli şərait var idi. Ordubad həm ipəkqurdunun yetişdirilməsi, həm də ipək parçanın istehsal edilməsi üzrə əsas mərkəzlərdən sayılırdı. Ordubadda qadınlar ev şəraitində ipək parça toxuyur və ipək saplar hazırlayırdılar. Burada çoxlu su tələb edən iki ipəksarıma emalatxanası da fəaliyyət göstərir, basmanaxışlı parçalar istehsal edilirdi.



Bu barədə "Naxçıvan tarixi"nin ikinci cildində ətraflı söhbət açılır: "İpəkçilik Naxçıvanın kənd təsərrüfatında vacib sahələrdən biri idi. Bölgədə ipəkçiliyin əsas mərkəzi Ordubad sayılır… Ordubad əyaləti İrəvan quberniyasında birinci yerdə durur. XIX əsrin 70-90-cı illərində bu əyalətin 46 kəndində ipəkçiliklə məşğul olurdular ki, bunların da arasında Ordubad şəhəri, Aşağı və Yuxarı Əylis, Aza, Çənnəb,Vənənd, Əndəmic, Dırnıs, Gənzə, Dəstə, Biləv kəndləri daha çox fərqlənirdi. Göstərilən 46 kəndin 41-də isə bilavasitə barama istehsalı ilə məşğul olurdular. İpəkçiliyin inkişaf etdirilməsində, əsasən, üç təsərrüfat sahəsi – tut plantasiyaları, barama istehsalı və ipəkəyirmə bir-biri ilə vəhdət təşkil edirdi. 1850-ci ildə Ordubad dairəsinin Aşağı Əylis, Dəstə, Biləv, Cənnəb və Ordubad ərazilərində 70 pud 20 girvənkə xam ipək hazırlanmışdı. 1862-ci ilin məlumatına görə, bu ərazilərdən 20 min puda qədər barama hasil edilmişdi… 1885-ci ildə Tiflisdə general-adyutant A.M.Dondukov Korsakovun iştirakı ilə keçirilən ipəkçilik sərgisində 10 yaxşı ipək məhsulu nümayiş etdirilmiş, ən layiqliləri, o cümlədən Ordubad ipəkçiləri də mükafatlandırılmışdı. 1870-ci ildə Ordubadda 931 pud barama istehsal olunmuşdursa, bu rəqəm 1900-cü ildə 5 min 400 puda çatdırılmışdı. Barama istehsalı başlıca olaraq müxtəlif iri sahibkarların (Məşədi Nəsir, Kazım bəy Əsgərxanov, Kərbəlayı Bağır və sair) əlində cəmləşdiyi üçün onlar kənd burjuaziyası kimi formalaşaraq, nəinki Rusiyanın iri toxuculuq sənaye müəssisələri ilə, habelə İtaliya, Fransa, Avstriya-Macarıstan kimi Avropa dövlətləri, eləcə də Yaponiya, Rəşt, Xorasan kimi ipəkçilik sahəsində şöhrət tapmış iri dövlət və şəhərlərlə geniş ticarət əlaqələri yaratmışdılar".

Qeyd edək ki, Ordubadda qadınlar hələ qədimdən bu gəlirli sahə ilə ev şəraitində məşğul olurdular. Onlar ipək parça toxuyur və ipək saplar hazırlayırdılar. İkinci Dünya müharibəsi illərində Ordubad şəhərində fəaliyyət göstərmiş Arteldə yun corab, şərf, gödəkcə toxunması ilə yanaşı, ipək sapdan kəlağayı da toxunmuşdur. Həmin kəlağayıların bir qismi ordubadlıların evlərində qiymətli yadigar kimi saxlanılmaqdadır.

İpəkçilikdən söhbət düşmüşkən, onun əsas xammal mənbəyi olan barama toxumu haqqında da söhbət açmaq lazım gəlir. 1932-ci ildə Ordubad şəhərində barama toxumu zavodu inşa olunub və sovetlər birliyinin dağılma ərəfəsinədək çox səmərəli şəkildə fəaliyyət göstərib.

Həmin zavodda uzun illər baş mühəndis kimi çalışmış Rza Nəcəfov deyir ki, bu zavod Azərbaycan Respublikasında fəaliyyət göstərən 7 müəssisədən biri olmuşdur. Ordubad barama toxumu zavodu bütün digər zavodlardan toxumunun keyfiyyət göstəricilərinə görə, xüsusilə fərqlənirdi. Ona görə ki, Ordubadda istehsal olunan baramalar keyfiyyətli olub. Ordubadın tut plantasiyalarındakı ağacların yarpaqlarında mövcud olan zülal maddəsinin miqdarı çox olduğundan, həmin yarpağı yeyən baramaqurdları keyfiyyətli ipək sap sarıyırdılar. Ötən əsrin 70-ci illərində əksər rayonlar barama istehsalı üçün Ordubad barama toxumu zavodunun məhsulunu almaq üçün növbəyə durardılar. Bu zavodda vaxt olub, bir ildə 530 kiloqram baramaqurdu toxumu hazırlanıb. Vurğulayım ki, Ordubadda baramaçılığı inkişaf etdirmək üçün bu sahəni bilənlər yetərincədir. Cüzi vəsait qoymaqla həm barama toxumu istehsalını, həm də baramaçılığı yüksələn xətlə inkişaf etdirmək mümkündür. Son illər salınan tut plantasiyaları, köhnə də olsa, keçmiş barama toxumu zavodunun binasının mövcudluğu bu sahəni inkişaf etdirmək üçün zəmin rolunu oynaya bilər.

Baramaçılığın inkişaf etdirilməsində tut ağaclarının rolu böyükdür. Vurğulayaq ki, bu ağacları əkdikdə tez inkişaf edir və uzun müddət yaşayırlar. Bu ağacın meyvəsindən də Ordubadda geniş şəkildə istifadə edilir.

**Abbas SEYİD**

### *İtmişdir*

Babək rayon Zeynəddin kənd sakini İsmayılov Bayram Saleh oğlunun adına olan 258A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 87